# Kubanın “Jovenes Clasicos Del Son” ansamblının konserti olub

VIII Qəbələ Beynəlxalq Musiqi Festivalı yerli və xarici tamaşaçılara unudulmaz anlar yaşatmaqda davam edir.

AZƏRTAC xəbər verir ki, avqustun 2-də Heydər Əliyev Konqres Mərkəzinin qarşısında quraşdırılan açıq havadakı səhnədə Kubanın “Jovenes Clasicos Del Son” ansamblının konserti olub.

Konsertdə məlumat verilib ki, “Jovenes Clasicos Del Son” ansamblının əsası 1904-cü ildə qoyulub. Qrup ənənəvi septet instrumental quruluşdadır. Akustik bas, tres, gitara, trampet, konqo, bonqolar və vokalistlərdən ibarət ansambl Kuba musiqisinin yeni qüvvəsi kimi təqdim edilir. Kubalı solistlər ənənəvi və müasir dünya musiqisindən bəhrələnərək zəngin salsa, son və digər Latın ritmlərini eklektik şəkildə birləşdiriblər.

Konsertdə təkrarolunmaz və özünəməxsus səslənmə yaratmağa müvəffəq olan “Jovenes Clasicos Del Son” ansamblının möhtəşəm çıxışı festival iştirakçılarına xoş anlar yaşadıb. Səhnədə interpretasiya gücü ilə seçilən “Jovenes Clasicos Del Son” qrupu konsertdə insanları rəqs etməyə sövq etməyi bacarıb.